# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 145** **Bakı şəhəri, 13 mart 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 dekabr tarixli 193 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartları”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1024-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 747 (Cild I) ilə təsdiq edilmiş “Dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartları”nın 1-ci hissəsindən “şəxsi istehlak miqdarından qat-qat artıq birdəfəlik” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

Xalq qəzeti.- 2024.- 17 mart, № 60.- S.9.